# UNİVERSİTETLƏRİN KİTABXANA FONDLARININ FORMALAŞMASINDA MÜASİR İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARININ ROLU

**Aygün Fətullayeva**
*Bakı Dövlət Universitetinin*
*Kitabxana resursları və informasiya axtarış sistemləri*
*kafedrasının magistrantı*
*iska2009@mail.ru*

***Xülasə:*** *Universitetlərin kitabxana fondlarının formalaşmasında informasiya kommunikasiya texnologiyalarının tətbiqi hər şeydən əvvəl universitetdaxili oxucuların profilinə uyğun həyata keçirilməlidir. Universitetlərin kitabxana fondlarının formalaşması onun təkcə müəssisənin tərkib hissəsi olmaqla kifayətlənmir, həmçinin bütün kitabxana prosesinin əsasını təşkil edir. Universitetlərin kitabxana fondlarının formalaşmasında innovativ proqramların təşkili, oxuculara ədəbiyyat verilişi və tövsiyəsi, kitabxana-biblioqrafiya biliklərinin təbliğinin ənənəvi metodu ilə bərabər, elektron resursların üzə çıxarılması, uçotu, onlardakı dəyişikliklərin izlənilməsi, istifadəçilərə informasiyanın əldə olunması sahəsində özünəxidmətin təşkili forması hesab edilir. Məqalədə yuxarıda qeyd edilən məsələlərə dair araşdırmalar aparılmış və konkret ədəbiyyatlara istinad olunaraq məlumatlar sistemləşdirilmişdir.*
***Açar sözlər:*** *Kitabxana, fond, elektronlaşdırma, elektron xidmət, İnformasiya Kommunikasiya Texnologiyaları (İKT).*

**Giriş.** Universitetlərin kitabxana fondlarının avtomatlaşdırılması cəmiyyətin dəqiq və operativ informasiyaya böyük tələbatı olduğu müasir dövrümüzdə vacib və çoxaspektli məsələlərdən biridir. Avtomatlaşdırmanın uğurlu nəticələnməsi ilk növbədə, görüləcək işlərin düzgün təşkilindən çox asılıdır. Hələ 1971-ci ildə kitabxana-informasiya sahəsində dünyada aparıcı mütəxəssislərdən hesab olunan X.X.Bernşteyn kitabxananın avtomatlaşdırılması üçün aşağıdakı prinsipləri irəli sürmüşdür: 1. Kitabxananın avtomatlaşdırılmasının Texniki sənədinin hazırlanması. Bu sənəddə kitabxana haqqında tam məlumat: strukturu, idarə olunması, kadr potensialı, fondu, oxucu kontingenti, xidmət növləri, texniki və informasiya təchizatı, maliyyə mənbələri, kitabxanalararası və beynəlxalq kitabxana təşkilatları ilə əlaqələri, statistik göstəriciləri, avtomatlaşdırmanın məqsədi və əhəmiyyəti, kitabxananın texniki-informasiya tələbatı əksini tapmalıdır. Sənəd hazırlanarkən, dərin analiz aparılmalı, kitabxanaların avtomatlaşdırma təcrübəsi, kitabxana-informasiya texnologiyası sahəsində qabaqcıl nəzəri və praktiki biliklər öyrənilməli, kitabxanın heç olmasa gələcək 10 illik inkişaf prespektivləri, və s. nəzərə alınmalıdır [6].

Texniki sənəd əsasında Kitabxananın Avtomatlaşdırılması Layihəsi hazırlanmalıdır. Kitabxananın Avtomatlaşdırılması layihəsi kompüter-informasiya texnologiyası mütəxəsissləri tərəfindən hazırlanır və 2 vacib bölmədən ibarət olur:

Texniki təminat. Bu bölmədə kitabxananın avtomatlaşdırılması üçün zəruri olan texniki qurğular və vasitələrə: kompüter, perferiya, şəbəkə-kommunikasiya, elektrik, mühafizə və s. avadanlıqlarına, rabitə xətləri və kanallarına tələbat şərh olunmalı və əsaslandırılmalıdır. Bu bölmədə həmçinin quraşdırılacaq avadanlıqların, rabitə vasitələrinin texniki göstəriciləri, onları satan ən azı üç firmanın qiymətlər siyahısı, yerləşmə və quraşdırma sxemləri öz əksini tapmalıdır.

• Proqram təminatı. Layihənin bu bölməsində istifadə olunacaq proqram təminatı, onun funksiyaları şərh olunur.

İstər Ali təhsil müəssisələrinin nəzdində fəaliyyət göstərən kitabxanaların, istərsə də müstəqil fəaliyyət istiqamətli kitabxana-informasiya mərkəzlərinin resurs bazasının komplektləşdirilməsi elmi kontekstdə həyata keçirilməlidir. Qeyd edək ki, kitabxana fondlarının komplektləşdirilməsi problemi bütün fondşünasların, kitabxanaçıları diqqətini cəlb etmiş, onlar tərəfindən bir sıra dəyərli fikirlər, elmi tövsiyyələr, mühüm praktiki və nəzəri mülahizələr irəli sürülmüşdür. Kitabxana fondunun formalaşması anlayışı 1960-cı illərin axırlarında görkəmli kitabxanaşünas Y.V.Qriqoryev. tərəfindən irəli sürülsə də, Y.V.Qriqoryevə qədər L.B.Xavkina qeyd edirdi ki, kitabxananın komplektləşdirməsi mütaliə rəhbərliyinin əsasını təşkil edir.

“Komplektləşdirmə” termininin izahı, nəzəri və praktiki həlli milli tədqiqatçılara nisbətən, rus tədqiqatçıları tərəfindən geniş şəkildə kitabxana fondu kontekstində təhlil edilmişdir. Bu sahədə rus tədqiqatçılardan: İ.A.Krılovun, Y.N.Stolyarovun da adlarını qeyd edə bilərik [5].

Universitetlərin kitabxana fondlarının formalaşmasında İKT tətbiqinin əsas məqsədi informasiya xidmətinin keyfiyyətinin yüksəldilməsi üçün informasiya texnologiyalarından səmərəli istifadə etməkdir [1]. Burada əsas üstünlük isə tələbə kontingentinə məkan və zamandan asılı olmayaraq informasiyanı daha asan əldə etmək imkanı yaratmasıdır. Universitetlərin kitabxana fondlarının formalaşmasında tətbiq olunan müasir informasiya texnologiyalarına 3M şirkətinə məxsus kitabxana məhsullarını nümunə göstərmək olar. İnteqrasiya olunan avadanlıqlar Özünəxidmət sistemi (Selfcheck), Fondun müdafiə sistemi (3M Security Gate), Kitabxanaçının iş yeri (Pad Staff Workstation), Elektron Kitabxana Köməkçisi (DLA) daxildir. Özünəxidmət sistemi (Selfcheck) - 3M şirkətinin özünəxidmət həlləri kitabxanaçını kitab verilişi və kitab qəbulu kimi işlərdən azad edir və bununla kitabxanaçının oxucuya məsləhət verməsi və mədəni-maarifləndirməsi üçün sərf edilən vaxtı azalmış olur. SelfCheck sistemi oxucuya sərbəst halda kitabın alışı və qaytarılmasının qeydiyyatını aparmağa imkan yaradır. Sistem həm ştrix-kodları, həm də RFID-nişanlarını oxuya bilir və eyni zamanda kitabxana fondunun bir neçə nüsxəsini emal edir. Fondun müdafiə sistemi (3M Security Gate) 40 ildən artıqdır ki, dünyanın aparıcı kitabxanalarının fondlarının qorunmasında tətbiq olunur. Bu sistem kitabxana fondlarından müxtəlif neqativ halların qarşısını alır. 3M müdafiə sistemi keyfiyyət səviyyəsini saxlamaqla kitabxananın mühafizəsi üçün nəzərdə tutulan xərclərin minimuma endirilməsinə imkan verir. 3M kitabxana xidmətləri kompleks şəkildə də təqdim edilə bilər. Kompleksə Security Gates, Selfcheck, Digital Library Assistant, Pad Staff Workstation və RFİD tag-lər daxildir. 3M texnologiyası avtomatlaşdırılmış kitabxana informasiya sistemlərinə asanlıqla inteqrasiya edilə bilər. Kitabxanaçının iş yeri (Pad Staff Workstation) – Kitabxanaçının universal iş yeri həm kitabların verilişi və qəbulu, həm də RFİD-nişanlarının istifadəsi və ehtiyac yarandıqda yenidən proqramlaşdırılması üçün nəzərdə tutulub. Zaman keçdikcə kitabxanalarda informasiya resurslarının sürətlə çox artması ilə müşahidə edilən yaranan idarəolunmaz vəziyyət kitabxanalarda yeni texnologiyaların istifadəsinə tələbatı artırır və onların inkişafına təkan verir. Bu problemlərin həlli üçün oxucuya xidmət edən Humanoid Robotlar göstərilə bilər.



Universitetlərin kitabxana fondlarının avtomatlaşdırılmasında profilindən, miqyasından, maliyyə imkanlarından və s. amillərdən asılı olaraq müxtəlif təyinatlı AKİS-dən istifadə edilir. Lakin istənilən halda avtomatlaşdırmanın əsas məqsədi [3]:

– kitabxana işinin effektivliyinin yüksəldilməsi;

– təqdim edilən məhsulun (informasiyanın) və xidmətlərin keyfiyyətinin yüksəldilməsi;

– kitabxana işçilərinin əməyinin yüngülləşdirilməsidir.

Aydındır ki, kitabxana işinin avtomatlaşdırılması ilk növbədə tətbiq edilən AKİS-in təyinat göstəriciləri çərçivəsində aşağıdakı əsas mərhələ və əməliyyatları əhatə etməlidir: – elektron kataloq əsasında kitabxananın profilinə uyğun biblioqrafik verilənlər bazasının yaradılması, məqsədəuyğun naviqasiya və axtarış vasitələri ilə təchiz edilməsi; – kitabxana fondunun tərkib hissəsi olan tammətnli verilənlər bazasının və ya minimal halda problemyönümlü anotasiyalaşdırılmış, daha yaxşısı, referatlaşdırılmış bazanın yaradılması [11].

**Nəticə.** Məqalədə müasir İKT imkanlarından istifadə etməklə universitetlərin kitabxana fondlarının avtomatlaşdırması məsələləri araşdırılır. Göstərilir ki, kitabxana, yazının ixtirasından başlayaraq rəqəmsal eraya qədər insanların yaradıcılıq əsərlərinin toplandığı, sistemləşdirildiyi və istifadəyə verildiyi yeganə ictimai-sosial təsisat olmuşdur. Lakin, texnika və texnologiyaların son nailiyyətləri əsasında təşkil edilmiş yeni tip elektron kitabxanalar klassik kitabxanaların əhəmiyyətini azaltmış və onları sıxışdırmaqdadır. Məqalədə bu fenomenin mahiyyəti araşdırılır. Göstərilir ki, kitabxana sosial institut statusunu, insanlarla informasiya və biliklər arasındakı vasitəçilik rolunu qoruyub saxlamaq üçün öz işini təkcə kağız daşıyıcılar üzərində yox, artoteka, fototeka, izoteka, kinoteka, mediateka fondları yaratmaqla informasiyanın bütün təsvir formaları ilə işləməli, rəqəmsal informasiya mühiti formalaşdırmalıdır. Bu

məqsədə çatmaq üçün avtomatlaşdırmanın ən mühüm vasitə olması fikri əsaslandırılır. Rabitə vasitələrindən və İnternetdən, fərdi və kollektiv istifadəli audio-video vizual, məlumatlandırma və mikrofilmləmə (mikronüsxələmə) vasitələrindən, RFID texnologiyalarından istifadə etməklə kitabxananın bir sıra fəaliyyət növlərinin avtomatlaşdırılması məsələlərinə baxılır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**


***Azərbaycan dilində***

1. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı //Kitabxanaşünaslıq və biblioqrafiya: elmi, nəzəri, metodik və təcrübi jurnal. – 2008. – № 2. – S.7-30.
2. Qardaşov, R.Ə. Elektron kataloqun axtarış imkanları// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal, – 2010, №1 (26).
3. Xələfov, A.A. Hüseynova A.S.: Elektron kataloqun əhəmiyyəti və təşkili prinsipləri//Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası). – 2004. – №4. – s. 288-290.
4. Xələfova, S.A. Kitabxana kataloqlarının inkişaf formaları:Elmi məqalə// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi, nəzəri, metodik və təcrübi jurnal. – 2011. – №2. – s.14-20.
5. Xələfova, S.A. Rəqəmsal dövrdə kitabxanaların komplektləşdirilməsi strategiyası // "Kitabxana-informasiya fəaliyyətində innovasiyalar və fənlərarası inteqrasiya" mövzusunda Beynəlxalq Elmi Konfransının materialları. Bakı, 2018, 4 may, S. 93-95.

***İngilis dilində***

6. Ayre, L.B. Library RFID Systems for Identification, Security, and Materials Handling. Library technology reports, 2012, 48(5).
7. Creating a virtual library: a how-to-do-it manual for librarians [Text]. – New York: Neal-Schuman, 1999. – 184 p.
8. Evans, G. Edward. Introduction to technical services [Text] /G. Edward Evans, Sandra M. Heft. Englewood, Colo: Libraries Unlimited, 1994. – 534 p.
9. Haley, C., Jacobsen, L., & Robkin, S. Radio frequency identification handbook for librarians. Westport, Conn: Libraries Unlimited.2007.

***Rus dilində***

10. Использование мультимедийных технологий в библиотеке информационно-методический дайджест. Новосибирск, 2012. www.ngonb.ru/docs/Методисты/Мультимедиа.pdf
11. Лобузина Е.В. Электронные ресурсы научной библиотеки в современной информационной среде // Информационное обеспечение науки: новые технологии. benran.ru›SEMINAR/SEM/Sb_11/sbornik/doc_344.pdf




**А.Фатуллаеба**

## Роль современных информационно-коммуникационных технологий в формировании библиотечных фондов вуза


***Резюме:*** *Применение информационных и коммуникационных технологий при формировании библиотечных фондов вуза в первую очередь должно осуществляться по профилю читателей вуза. Формирование фондов вузовской библиотеки является не только частью вуза, но и составляет основу всего библиотечного процесса. При формировании фондов вузовских библиотек организация инновационных программ, предоставление и рекомендация литературы читателям, наряду с традиционным методом популяризации библиотечно-библиографических знаний, рассматривается как форма организации самообслуживания в сфере открытия электронных ресурсов, учет, отслеживание изменений в них и получение информации для пользователей. В статье проведены исследования по вышеуказанным вопросам и систематизирована информация путем обращения к конкретной литературе.*



***Ключевые слова:*** *Библиотека, фонд, электроника, электронный сервис, информационно-коммуникационные технологии (ИКТ)*


**A.Fatullayeva**

## The role of modern information communication technologies in the formation of university library funds


***Summary:*** *The application of information and communication technologies in the formation of university library funds should first of all be carried out according to the profile of university readers. The formation of university library funds is not only a part of the institution, but also forms the basis of the entire library process. In the formation of university library funds, the organization of innovative programs, providing and recommending literature to readers, along with the traditional method of promoting library-bibliographic knowledge, is considered a form of self-service organization in the field of discovering electronic resources, accounting, tracking changes in them, and obtaining information for users. In the article, research was conducted on the above-mentioned issues and information was systematized by referring to specific literature.*



***Key words:*** *Library, fund, electronicization, electronic service, Information Communication Technologies (ICT)*

***Rəyçi:*** *t.ü.f.dok.* ***R.Ə.Qardaşov***